*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 69-74* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.69*

# "Dədə Qorqud" ideya və motivləri Bəxtiyar Vahabzadə yaradıcılığında

**Yeganə İsmayılova**
Filologiya elmləri doktoru, professor
Bakı Dövlət Universiteti
E-mail: yegane-n@mail.ru
ORCID-000-0003-3836-2229

**Annotasiya.** Tədqiqatlar göstərir ki, Azərbaycan yazarları "Dədə Qorqud" motivlərinə daima müraciət etmişlər: onların yaradıcılığında Qorqud ədəbi ruhu həmişə var olmuş, daim milli poetik düşüncəni qidalandırmışdır. XX əsrin birinci yarısında "Kitabi-Dədə Qorqud" eposunun çap olunaraq cəmiyyətimizdə məşhurlaşması, yaranan "Dədə Qorqud" coşqusu müasir ədəbiyyatımızda bu günə kimi davam etməkdədir. Müasir poeziyada "Kitabi-Dədə Qorqud" motivlərindən istifadə ənənəsi dövrün ab-havasına uyğun olmuşdur. Repressiyalar dövründə ona maraq zəifləmiş, sonralar yenə güclənmişdir. "Kitabi-Dədə Qorqud" mövzusu sovet dövrü Azərbaycan poeziyasında 50-ci illərdən başlayaraq getdikcə genişlənmiş, çoxlu şeir və poemalar yazılmışdır. B.Vahabzadə, N.Xəzri, İ.Səfərli, H.Arif, A.Abdullazadə, Hidayət, V.Cəbrayılzadə, N.Kəsəmənli, R.Z.Xəndan və b. şairlər "Dədə Qorqud" motivləri əsasında maraqlı poeziya nümunələri yaratmışlar.
"Kitabi-Dədə Qorqud" eposunun müasir Azərbaycan şeirinə təsirinin öyrənilməsində "Dədə Qorqud" motivləri əsasında yazılmış poemalar xüsusi yer tutur. Azərbaycan poeziyasında "Kitabi-Dədə Qorqud" motivləri ilə bağlı poemaları iki qismə ayırmaq mümkündür:
1. Eposla qismən (müəyyən elementlərlə) bağlı olan poemalar;
2. "Dədə Qorqud" motivləri üstündə yazılmış poemalar.
Birinci qismə aid poemalara çoxlu nümunələr gətirmək mümkündür. Bu əsərlər birbaşa "Dədə Qorqud" motivləri ilə əlaqədar deyildir. Həmin poemaların əksəriyyətində Dədə Qorqud obrazına, eposun digər qəhrəmanlarına, "Dədə Qorqud" deyimlərinə, bədii təsvir və ifadə vasitələrinə fraqmentar şəkildə (yəni yeri gəldikcə) rast gəlinir. Ümumiyyətlə, şairlərimiz xüsusilə öz lirik qəhrəmanlarını tərənnüm edərkən igidlik simvolu kimi Salur Qazan, Beyrək, Qaraca Çoban kimi qəhrəmanların adlarına, eləcə də müdriklik simvolu kimi Dədə Qorqud adına tez-tez müraciət etmişlər. Lakin belə məqamlara əsaslanıb, həmin poemaları "Dədə Qorqud" mövzusunda yazılmış əsərlər hesab etmək olmaz.
İkinci qismə aid poemalara gəldikdə bunlar, əsasən, N.Xəzri, B.Səhənd, A.Abdullazadə, Z.Yaqub, N.Kəsəmənli, T.Elçin, R.Təhməzoğlu və s. kimi sənətkarların yaradıcılığını əhatə edir. Bu sənətkarların yazdığı poemalarda "Dədə Qorqud" eposunun obraz və ideyalarının müxtəlif bədii məzmun və formalarda təsviri ilə qarşılaşırıq.
**Açar sözlər:** "Kitabi-Dədə Qorqud", dastan, poema, Azərbaycan ədəbiyyatı tarixi, qorqudşünaslıq, epos, araşdırıcı alimlər

**Məqalə tarixçəsi:** göndərilib – 09.09.2025; qəbul edilib – 22.09.2025

# The ideas and motifs of Dede Gorgud in the creativity of Bakhtiyar Vahabzadeh

**Yegana Ismayilova**
Doctor of Philological Sciences, Professor
Baku State University
ORCID-000-0003-3836-2229
E-mail: yegane-n@mail.ru

**Abstract.** The research presented in this article clearly shows that Azerbaijani poets have long drawn inspiration from the motifs of Dede Gorgud in their works. After its publication in the first half of the XX century, the epos gained popularity and became a source of inspiration for skilled reciters. The tradition of incorporating Dede Gorgud motifs into modern poetry naturally evolved in line with the cultural and historical atmosphere of the time. During periods of repression, interest in the epos declined significantly, almost fading away. However, it later regained attention and became even more influential. From the 1950s onward, Kitabi-Dede Gorgud emerged as an important theme in Azerbaijani poetry during the Soviet era, leading to the creation of numerous poems and epic works. Poets such as B.Vahabzade, N.Khazri, I.Safarli, H.Arif, A.Abdullazada, Hidayat, V.Jabrailzade, N.Kesemenli, and R.Z.Khandan produced compelling poetic works inspired by Dede Gorgud.
Poems influenced by Kitabi-Dede Gorgud hold great significance in understanding how this epos has shaped modern Azerbaijani verse. Generally, these poems fall into two categories:
1. Poems that incorporate elements of the epos;
2. The poems written on motifs of "Dede Gorgud".
We can give examples of the poems of the first category. These works are not directly based on Dede Gorgud but reference its characters and themes. In many of these poems, figures such as Salur Gazan, Beyrek, and Garaja Choban symbolize bravery, while Dede Gorgud represents wisdom. However, simply mentioning these names does not necessarily make a poem fully centered on Dede Gorgud. The poems of the second category: Poems deeply rooted in the motifs of the epos – These works, written by poets like N.Khazri, B.Sahand, A.Abdullazada, Z.Yagub, N.Kesemenli, T.Elchin, and R.Tahmazoglu, explore the themes, ideas, and characters of Dede Gorgud in various artistic forms and styles.
**Keywords:** "Kitabi-Dede Gorgud", saga, poem, history of Azerbaijani literature, Gorgud Studies, epic, scholars and researchers

**Article history:** received – 09.09.2025; accepted − 22.09.2025

## Giriş / *Introduction*

Müasir poeziyada "Kitabi-Dədə Qorqud" motivlərindən istifadə ənənəsi daha sonra dövrün ab-havasına uyğun olmuşdur. Repressiyalar dövründə ona maraq zəifləmiş, sonralar yenə güclənmişdir. Ümumiyyətlə isə "Dədə Qorqud" ruhu Azərbaycan ədəbiyyatını heç vaxt tərk etməmişdir. Tədqiqatçı G.Babaxanovanın yazdığı kimi, "Dədə Qorqud kitabı" və 1920-30-cu illər Azərbaycan sovet poemaları (ümumən poeziyası – Y.İ.) arasında mövzu, motiv, obraz, ideya, bədii ifadə vasitələri baxımından istənilən qədər paralellər aparmaq, səsləşmələr, bəhrələnmələr, təsirlənmələr aşkara çıxarmaq mümkündür" [1, s.63-64].

N.Ələkbərli eposun ədəbiyyata təsirinin çoxplanlı, mürəkkəb və geniş tədqiqat tələb edən iş olmasına işarə edərək yazır ki, ədəbiyyatımızda "Kitabi-Dədə Qorqud"un təsiri təkcə birbaşa deyil, həm də dolayısı ilədir. "Kitabi-Dədə Qorqud" poeziyasının, nəsrinin, bədii-fəlsəfi hikmətinin, orijinal poetikasının təsiri bir çox sənətkarların yaradıcılığında öz izlərini qoymuşdur. Bu təsirin izlərini onlarca şeirdə, hekayədə, miniatür və epik əsərlərdə müşahidə etmək mümkündür. "Kitabi-Dədə Qorqud" mövzusu sovet dövrü Azərbaycan poeziyasında 50-ci illərdən başlayaraq getdikcə

genişlənir, çoxlu şeir və poemalar yaranır. B.Vahabzadənin, N.Xəzrinin, İ.Səfərlinin, H.Arifin, AAbdullazadənin, Hidayətin, V.Cəbrayılzadənin, N.Kəsəmənlinin, R.Z.Xəndanın və b. şairlərin yaradıcılığında "Kitabi-Dədə Qorqud" motivlərinə çox rast gəlirik" [3, s.16].

**Əsas hissə / *Main part***

Maraqlıdır ki, Azərbaycan poeziyasında xüsusilə görkəmli şairlərin yaradıcılığında "Dədə Qorqud" motivlərindən istifadə kiçik janrlardan (şeirlərdən) monumetal janrlara (poemalara) doğru istiqamət götürmüşdür. Bu cəhətdən B.Vahabzadə, N.Xəzri, B.Səhənd, A.Abdullazadə, Z.Yaqub, N.Kəsəmənli, V.Aslan və b. şairlər Dədə Qorqud ruhunda təkcə kiçik həcmli şeirlər yox, eləcə də iri poemalar yazmışlar. Ədəbiyyatdakı bu prosesi bir dalğa hesab edən tədqiqatçı H.Həşimli göstərir ki, "Kitabi-Dədə Qorqud" motivlərinin yazılı ədəbiyyatda yeni bir dalğa ilə qüvvətlənməsi... (XX əsrin – Y.İ.) 1970-ci illərdən başlanır. Bunun müəyyən obyektiv və subyektiv səbəbləri də vardır. O doğrudur ki, dastan Azərbaycanda ilk dəfə altmış il bundan əvvəl çap edilmiş, lakin stalinizm dövründə yayılmamış, qərəzli münasibətə hədəf olduğundan ədəbi prosesə təsirsiz qalmış, yalnız 60-cı illərdən sonra dastan yenidən ədəbi həyatda öz qanuni yerini bərpa etməyə başlamışdır [5].

Azərbaycan şairlərinin yaradıcılığında "Kitabi-Dədə Qorqud" motivlərindən istifadə bütün hallarda milli-mənəvi dəyərlərlə bağlıdır. Şairlər eposa bu dəyərlərin qaynağı kimi müraciət etmişlər. Bunun belə olması isə qanunauyğun idi. Çünki "Kitabi-Dədə Qorqud" boylarında tədqiqatçı İ.Rüstəmovun yazdığı kimi, səxavət, qeyrət, sədaqət, ədalət, humanizm, gözəlliyin tərənnümü, musiqinin mahiyyəti, azadlıq problemi, sadə insanların səciyyəsi, ana müqəddəsliyi, vətənpərvərlik, doğruçuluq, əxlaqi saflıq, etibar kimi bəşəri problemlərlə qarşılaşırıq" [6, s.18]. Eposdakı bu milli-mənəvi, milli-əxlaqi keyfiyyətlər onun Azərbaycan xalqının etnik-psixoloji xüsusiyyətlərini inikas edən abidə olması ilə bağlıdır. Prof. Ə.Bayramov yazır ki, "Dədə Qorqud" dastanlarında öz əksini tapan etnik xarakter əlamətləri ümumən oğuz etnosunun "psixi sima"sının aynası kimi çıxış edir [2, s.27]. Şairlərimizin, yazıçılarımızın eposa coşqun marağının əsasında elə bu amil durur. Özünü bir milli şəxsiyyət və sima kimi axtaran, milli özünütəsdiq ideyaları üçün alışıb-yanan yaradıcı subyektlər bütün bu ideya və idealları məhz "Kitabi-Dədə Qorqud" dastanlarında tapırlar. Bu cəhətdən görkəmli şair B.Vahabzadənin dastanın obraz və ideyalarından istifadəsinin kökündə məhz milli ideyalar, milli özünütəsdiq idealları durur.

"Azərbaycan oğluyam" şeirində "anasının torpaq", "atasının od olduğunu" və "oddan yarandığını" milli özünütəsdiqin ən ali və ülvi səviyyəsi kimi bəyan edən B.Vahabzadə milli varlığımızın "hünər" keyfiyyətini vəsf edərkən "Kitabi-Dədə Qorqud"dan məşhur adalma motivinə istinad etmişdir:

*Hünər göstərməyincə*
*Adsız yaşamışam mən.*
*Dədəm Qorqud ad verdi*
*Mənə öz hünərimdən.* [8, s.197]

Şair Qarabağ atını tərənnüm edərkən onu elimizin igidlik simvolu səviyyəsinə qaldırır və bu zaman ulu Bayandur xanı yada salır:

*Qarabağın kürən atı –*
*Döyüşlərdə arxasıdır*
*Koroğlunun,*
*Bayandurun.* [7, s.46]

Başqa bir (adsız) şeirində ulu Dədə Qorqud sənətkarın ürəyini içəridən didən fikirləri, milli arzu və istəklərini bölüşdüyü həmsöhbət-həmdərddir:

*Tutuşmuşam, çaxmaq yoxdur alışmağa.*
*Qaynayıram, təpərim yox, nə coşmağa, nə daşmağa.*

*Ürəyimin sözlərini oba-oba danışmağa*
*Dədə Qorqud timsalında ozan ola,*
*Bir qəribə yuxu gördüm, istəyimcə yozan ola!* [7, s.46]

Filosof şair B.Vahabzadənin poeziyasında dastana bütün hallarda milli dəyərlər aspektində müraciət etməsinin səbəbləri onun bir məqaləsində belə izah edilmişdir: “Hər bir xalq üçün öz kökünü, ilkini və qaynağını bilmək vacibdən vacibdir. Ona görə ki, haradan gəldiyini bilməyən hara gedəcəyini də bilməz. Bu gün böyük xarüqələr yaradan, qəhrəmanlıqlar göstərən xalqımız bu qüdrəti və bu gücü haradan almış – deyə düşündüyümüz zaman keçmişə baxır, ilkimizi araşdırmalı oluruq. Bugünkü qəhrəmanlar kökləri əsrlərin dərin qatlarına işləyən nəhəng bir ağacın əsrimizdəki budaqlarıdır. Bu ağacın adı “Qorqud” ağacıdır [11].

Müasir Azərbaycan poeziyasında elə məqamlar var ki, birbaşa “Dədə Qorqud” poetik ruhunun varlığına bağlıdır (onun ifadəsidir). Belə şeirlərdə “Dədə Qorqud” zahiri planda olmasa da, bir ruh, daxildən, arxaik yaddaşdan gələn enerji simvolları kimi poetik mətnə daxil olur. Tədqiqatçı G.Əliyeva bu barədə Azərbaycan poeziyasında xüsusi poetik üsluba malik olan B.Vahabzadə poeziyasının nümunəsində yazır: “70-90-cı illər poeziyasında Dədə Qorqud boylarından əksər hallarda ritorik və patetik (həddən artıq duyğusal) istiqamətdə deyil, estetik yönümdə istifadə edilmiş, dastanların heyrətamiz sənətkarlıq xüsusiyyətləri çağdaş poetik fikrimizi zənginləşdirmişdir.

Azərbaycan şairləri “Dədə Qorqud” motivlərinə geniş şəkildə müraciət etmişlər. Qorqud ədəbi ruhu həmişə var olmuş, daim milli poetik düşüncəni qidalandırmışdır. XX əsrin birinci yarasında “Kitabi-Dədə Qorqud” eposunun çap olunaraq cəmiyyətimizdə məşhurlaşmasından yaranan “Dədə Qorqud” coşqusu müasir ədəbiyyatımızda bu günə kimi davam etməkdədir.

B.Vahabzadənin müəllim-tələbə münasibətlərinin mənəvi meyarlarından bəhs edən “Qiymət” poemasında (1970) müəllim adının məsuliyyətindən belə bəhs edir:

*Mənə tapşırdılar şərəfli, çətin*
*Qiymət vermək kimi bir vəzifəni.*
*Özümdən soruram, bəs sən neylədin?*
*Gör necə aldılar özündən səni!*
*Niyə tapılmadı o qüdrət məndə,*
*Verim qiymətini, verim hər kəsin?*
*Saxsını almazla bir eyləyəndə,*
*Günahkar sərrafdır, almaz neyləsin?*
*Qorqud adamlara ad qoyanda da*
*Əməli düşündü,*
*Dəyəri gördü...*
*Güvənib Dədədən aldığı ada*
*Hər kəs o ad ilə ömrünü sürdü.*
*Mən verə bilmədim, ay Qorqud Dədə,*
*Doğru qiymətini burda hər kəsin.* [9, s.524]

Göründüyü kimi, şair poemanın baş qəhrəmanı olan müəllimin mənəvi ağrılarının təsviri zamanı Dədə Qorqudun ad verməsi motivindən insana qiymət verməyin ideal nümunəsi kimi istifadə etmişdir. Halbuki poema mövzusu etibarilə heç bir halda “Kitabi-Dədə Qorqud” eposu ilə bağlı deyildir.

B.Vahabzadənin stalinizm repressiyalarının milli mənəviyyatda doğurduğu eybəcərliklərdən bəhs edən “İki qorxu” adlı poemasında (1988) da bir məqamda oxuyuruq:

*De, hara sığışar, hara ey zaman,*
*Bu boyda təhqirə xalqın dözməsi –*

*Dədə Qorqud kimi dədəsi olan*
*Millətin özünə dədə gəzməsi.* [10, s.568]

B.Vahabzadə dramaturgiya sahəsində də özünəməxsusdur, fəal vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir. "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Qızıl alma", "Dar ağacı", "Atamın kitabı", "Fəryad", "Özümüzü kəsən qılınc" ("Göy türklər") və b. dramlarının mövzu dairəsi, bu əsərlərdə qaldırılan milli, bəşəri problemlər, onların bədii həlli şairi mahir bir dramaturq kimi təsdiqləməkdədir. Şairin poeziyasında olduğu kimi dramlarında da lirik-psixoloji və epik-fəlsəfi üslub özünü göstərir. Tədqiqatçılar onun müxtəlif növ və janrlarda yazdığı əsərlərinin leytmotivini belə xarakterizə edirlər: "Ümumiyyətlə, B.Vahabzadənin yaradıcılığında lirik, epik və dramatik əsərlərinin hamısı üçün bir leytmotiv xarakterikdir: mümkün qədər insanın iç dünyasına, daxili-mənəvi aləminə baş vurmaq, onun görünməyən, qapalı, aysberqə bənzəyən tərəflərini kəşf etmək" [4].

Bəxtiyar Vahabzadənin sırf tarixi mövzuda yazdığı üç pyesi vardır: "Dar ağacı" (Babəkə həsr olunub) "Fəryad" (Nəsimiyə həsr olunub), "Özümüzü kəsən qılınc" ("Göytürklər"). "Dar ağacı" pyesində Babəkin edamına nail olmuş Aqşinin (Ərəb xilafətinin valisi kimi Azərbaycana qayıtmışdı) ömrünün də dar ağacında bitməsi ibrətamizdir. İmadəddin Nəsimiyə həsr olunmuş "Fəryad" mənzum tarixi faciəsində fikir və şəxsiyyət azadlığı problemi qaldırılmışdır. Tədqiqatçılar Bəxtiyar Vahabzadənin pyeslərinin onun poeziyası ilə bağlılığını insan psixologiyasının ziddiyyətləri ilə vəhdətdə izlədiyini, daxili aləmin təhlilinə qüvvətli meyilliliyin şairin yaradıcılığı üçün səciyyəviliyini qeyd edirlər.

B.Vahabzadə tarixi mövzuya müraciət edərkən "tarixi dürüstlüyü tam mühafizə etməyi", "tarixi şəxsiyyəti həyatda olduğu kimi" verməyi vacib hesab etmir. Qəhrəmanlarının əlamətdar cəhətlərini, tərcümeyi-halının mühüm nöqtələrini tarixin inkişaf qanunları baxımından ümumiləşdirilib, onun yaşadığı dövrü, bu dövrün pafosunu, qabaqcıl ideyalarını əks etdirir. Hər tarixi dramını yazmazdan əvvəl müəllif qələmə aldığı dövrü dərindən öyrənir, ona bu günün gözüylə nəzər salmağı, dövrlər arasında kontakt yaratmağı bacarır, bu günün tamaşaçıları ilə ulu əcdadlarımız arasında bir növ körpü yaradır [4].

B.Vahabzadənin müstəqillik illərində qələmə aldığı tarixi dramlarından biri də "Özümüzü kəsən qılınc" adlanır. "Özümüzü kəsən qılınc" pyesi müstəqillik dövrü Azərbaycan dramaturgiyasının payına düşür. "Kitabi-Dədə Qorqud"un motivləri əsasında yazılmış bu dramda türklərin şanlı, ulu tarixi mövzu obyekti kimi götürülmüş, türk xalqlarının birliyi məsələsinin vacibliyi əsas ideya mərkəzinə gətirilmişdir. Tarixilik və müasirliyi özündə təcəssüm etdirən "Özümüzü kəsən qılınc" ("Göytürklər") dramı əsl mənada tarixin ibrət dərsidir: "Nə qədər ki, qılıncımız düşməni deyil, özümüzü kəsəcək, biz kiçiləcəyik, böyük türk ola bilməyəcəyik". Əsər VII əsrdə mövcud olmuş Göytürklərdən, onların torpaq uğrunda apardığı mübarizədən, əsərin qəhrəmanı Gur-Şadın qəhrəmanlığından bəhs edir. Ana xəttini vətən, torpaq, azadlıq təşkil edən "Özümüzü kəsən qılınc" pyesində bədii boyalarla B.Vahabzadə tarixilik və müasirliyin vəhdətini yaratmışdır.

Bu əsərləri milli keçmişimizə qoyulan möhtəşəm abidə hesab etmək olar.

## Nəticə / *Conclusion*

B.Vahabzadənin "Özümüzü kəsən qılınc" pyesi "Dədə Qorqud" dastanlarındakı motivlər əsasında yazılmışdır. Pyesin əsasında qədim türk tayfaları arasındakı düşmənçilik və müharibələr mövzusu durur: özümüzü kəsən qılınc məhz budur. Şair tarixi mövzu ilə xalqımızı birliyə çağırır, tayfaçılıq və yerliçilik kimi eybəcər halların xalqımızın gələcəyi üçün təhlükə olduğunu vurğulayır.

## Ədəbiyyat / *References*


1. Babaxanova G. 1920-30-cu illər Azərbaycan poemalarında "Dədə Qorqud" dastanı ilə bağlılığı. // "Dədə Qorqud" jurnalı, 2007, №2.

2. Bayramov Ə. “Kitabi-Dədə Qorqud” dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası. – Bakı: Nurlan, 2000, 148 səh.
3. Ələkbərli N. “Kitabi-Dədə Qorqud” Azərbaycan ədəbiyyatında // “Azərbaycan” jurnalı, 1999, №9.
4. Əliyeva X. Müasir Azərbaycan dramaturgiyası. Dərs vəsaiti. – Sumqayıt, 2019, 127 səh.
5. Müasir Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik. 2 cilddə, II c. – Bakı, 2007, 564 səh.
6. Rüstəmov İ. “Dədə Qorqud”da insan gözəlliyi. – Bakı: Bilik Cəmiyyəti, 1978, 48 səh.
7. Vahabzadə B. Açılan səhərlərə salam. – Bakı: Yazıçı, 1979, 230 səh.
8. Vahabzadə B. Əsərləri (1960-1969). 12 cilddə, II c. – Bakı, Elm, 2008, 616 səh.
9. Vahabzadə B. Əsərləri (1970-1979). 12 cilddə, IV c. – Bakı: Elm, 2008, 662 səh.
10. Vahabzadə B. Əsərləri (1980-1989). 12 cilddə, V c. – Bakı: Elm, 2008, 584 səh.
11. Vahabzadə B. Qorqud obrazı və tarixi-ictimai hadisələr // “Ədəbiyyat və incəsənət” qəz., 1079, 29 iyun.

## Идея и мотивы “Деде Коркуда” в творчестве Бахтияра Вахабзаде

**Егяна Исмаилова**
Доктор филологических наук, профессор
Бакинский Государственный Университет
E-mail: yegane-n@mail.ru
ORCID-000-0003-3836-2229

**Резюме.** Исследование показывает, что азербайджанские поэты широко использовали мотивы “Деде Коркуд” в своем творчестве. После публикации в первой половине XX века эпос “Деде Коркуд” приобрел большую популярность и послужил источником вдохновения для мастеров слова. Традиция использования мотивов “Деде Коркуд” *в* современной поэзии в дальнейшем соответствовала атмосфере времени.

В период репрессий интерес к эпосу ослаб, почти угас, позднее же усилился. Начиная с 50-х г.г. XX в. тема “Китаби-Деде Коркуд” в азербайджанской поэзии советского периода постепенно расширяется; пишется множество стихотворений, поэм. Б.Вагабзаде, Н.Хазри, И.Сафарли, Г.Ариф, А.Абдуллазаде, Хидаят, В.Джабраилзаде, Н.Кесеменли, Р.З.Хандан и другие азербайджанские поэты создали интересные образцы поэзии по мотивам эпоса “Деде Коркуд”.

В изучении влияния эпоса “Китаби-Деде Коркуд” на современный азербайджанский стих особое значение имеют поэмы, написанные на основе мотивов данного эпоса. В азербайджанской поэзии поэмы, связанные с мотивами “Китаби-Деде Коркуд”, условно могут быть разделены на две категории:

1. Поэмы, частично (определенными элементами) связанные с эпосом;
2. Поэмы, написанные по мотивам эпоса.

Среди поэм первой категории можно привести множество примеров. Эти произведения непосредственно не связаны с мотивами “Деде Коркуд”. В большинстве этих поэм образ Деде Коркуда, другие герои дастана, средства художественного повествования, описания и выразительности встречаются лишь фрагментарно. Вообще, азербайджанские поэты, воспевая своих лирических героев, часто обращались к именам героев дастана: Салар Казан, Бейрек, Гараджа Чобан как символы храбрости, Деде Коркуд как символ мудрости. Однако считать эти поэмы произведениями, написанными на тему “Деде Коркуд”, лишь на основании таких фактов неправомерно.

Во вторую категорию входят поэмы, написанные такими мастерами слова, как Н.Хазри, Б.Саханд, А.Абдуллазаде, З.Ягуб, Н.Кесеменли, Т.Эльчин, Р.Тахмазоглы. В этих поэмах идеи и образы эпоса “Деде Коркуд” даются в разных формах и с разным художественным содержанием.

**Ключевые слова:** “Китаби-Деде Коркуд”, дастан, поэма история азербайджанской литературы, коркудоведение, эпос, ученые-исследователи